# Səfir Vada Cüniçi:
# “Yaponlarla azərbaycanlıların ən oxşar cəhəti odur ki...”

## “Yaponiya şirkətləri azad edilmiş ərazilərdə quruculuq işlərinə maraq göstərir”

*Yaponiya dünyanın ən inkişaf etmiş dövlətləri sırasındadır və əsrarəngiz ölkə kimi sivilizasiya tarixində özünəməxsus yeri var. Yaponiya qədim ənənələrə sadiqliklə modern texnoloji inkişafı üzvi şəkildə birləşdirərək, bu cür yüksək inkişafa nail ola bilib. Azərbaycanla Yaponiyanın oxşar cəhətləri kimi ailə dəyərlərinə, tarixi irsə hörməti qeyd etmək olar.*

*Hazırda Yaponiya Azərbaycanın sənaye potensialının gücləndirilməsində fəal iştirak edir, həmçinin, ölkəmizdə böyük investisiya portfelinə malikdir. Bu dost ölkə sosial layihələrə də böyük vəsait ayırır.*

*Səfir kimi cənab Vada Cüniçi Azərbaycan mətbuatına ilk müsahibəsini “AzPolitika.info” saytına verib. Bu müsahibədə iktərəfli əlaqələrin inkişafı, Yaponiyadan dünyaya, beynəlxalq münasibətlərə baxış, Çinlə münasibətlər, yeni planlar barədə söhbət etmişik:*

**(əvvəli ötən sayımızda)**



**“Yaponiya-Azərbaycan münasibətlərini daha geniş şəkildə möhkəmləndirmək üçün əlimdən gələni əsirgəməyəcəm”**

-Hal-hazırda Yaponiya Beynəlxalq Əməkdaşlıq Təşkilatı (JICA) “Azərenerji”ASC-nin istəyi əsasında “Azərenerji”nin enerji sektorunun inkişafı layihəsinin yenilənməsi işlərini həyata keçirir. Bu yenilənmə işlərinə Azərbaycan hökumətinin gələcəkdə həyata keçirməli olduğu elektrik enerjisi layihələrinin müəyyənləşdirilməsi məsələsi də daxil olduğu üçün, həmin işin nəticəsində müəyyənləşən layihələr ilə bağlı Azərbaycan hökuməti tərəfindən Yaponiya hökumətindən istəklər olarsa, bu məsələ nəzərə alınacaq. Bundan əlavə, azad edilmiş ərazilərdəki bərpa və quruculuq işlərinə TEPSCO şirkətindən əlavə maraq göstərən digər yapon şirkətlərinin də olduğu bilinir, lakin ətraflı məlumatımız yoxdur.

**-Bu il ərzində hər hansı bir qarşılıqlı səfərlər gözlənilirmi?**

-Yeni növ koronavirus infeksiyasının yayılması səbəbindən təəssüflər olsun ki, hal-hazırda konkret rəsmi səfərlər nəzərdə tutulmayıb. Lakin gələn il diplomatik münasibətlərin 30-cu ildönümü çərçivəsində qarşılıqlı səfərlərin yenidən bərpa olunacağına ümid edirəm.

**-Bir ilə yaxındır ölkəmizdə fəaliyyət göstərirsiniz və Azərbaycan dilində yaxşı danışırsınız. Dilimizi öyrənmək üçün nə qədər vaxt sərf etdiniz və ümumiyyətlə, daha hansı xarici dilləri bilirsiniz?**

-Bu, mənim düşüncə tərzimdir. Hansı ölkədə çalışsam, həmin ölkənin dilini öyrənməklə həmin ölkənin əhalisi ilə daha yaxın, mehriban münasibətlər qurmaq mümkündür və bununla həmin ölkəni daha yaxından tanımağı, dərk etməyi düşünürəm. 20 il əvvəl Vyetnamda işləyəndə də bu ölkənin dilini öyrənmişdim. Azərbaycan dilini isə buraya gəlməmişdən 4 ay əvvəl öyrənməyə başladım. Bu dili mənə Yaponiyada təhsil alan azərbaycanlı bir tələbə öyrədirdi. Azərbaycana gələndən sonra xüsusi dərslər almamışam. Səfirliyin yerli işçiləri və yerli əhali ilə ünsiyyətdə olmaqla müxtəlif yeni biliklər əldə edirəm.

**- Gəldiyiniz gündən bu yana aktiv fəaliyyət göstərir, səfərlərə gedir, görüşlərə qatılırsınız. Yəqin ki, Azərbaycan mədəniyyəti, tarixi ilə tanış olmaq imkanınız olub və Yaponiya ilə Azərbaycan xalqları, mədəniyyətləri arasında oxşar cəhətlər müşahidə edə bilmisiniz. Bu cəhətlər hansılardır?**

- Müxtəlif oxşar cəhətləri müşahidə edə bilmişəm. Lakin mənə elə gəlir ki, bunların arasında ən oxşar cəhət insanların bir-biri ilə mehriban, mülayim münasibətlərdir. Ailədaxili münasibətlərdə, xüsusilə yaşlılara, özündən böyüklərə olan hörmət də oxşar cəhətlərimizdən biridir. Azərbaycan mətbəxində dolmanı, plovu çox bəyənirəm. Tez-tez bölgələrə səfərim olur. Hər bölgənin, rayonun özünəməxsus yeməkləri var. Lənkəranda kütüm ləvəngisini, Şəkidə pitini, Qubada çuyuya bənzər bir yeməyi çox sevdim.

**-Xalqlarımız arasında oxşar cəhətlərin olduğunu dediniz. Adətən, iki xalqın bir-birini daha da yaxından tanıması üçün turizm sahəsində münasibətlər genişləndirilir. Düzdür, hazırda bütün dünyada bu sektorda durğunluq var. Ümumiyyətlə, bu sahəni inkişaf etdirmək üçün nə kimi tədbirlər görülür?**

- Xalqlar arasında münasibətləri yaxınlaşdırmaq üçün turizm ən perspektivli sahələrdən biridir. Düşünürəm ki, iki ölkə arasında bu sahəni genişləndirmək, inkişaf etdirmək mümkündür. Pandemiya dövrü bitdikdən sonra turizm sahəsini daha da inkişaf etdirmək üçün hansı addımların atılmasının vacib olduğu ilə bağlı danışıqlar artıq başlayıb. Azərbaycanla Yaponiya arasında birbaşa yükdaşıma reysi açılıb və fəaliyyət göstərir. Yaxın gələcəkdə sərnişin təyarrəsinin də fəaliyyətə başlamasına ümid edirəm.

**-Cənab səfir, bir az da beynəlxalq gündəlikdən söz açaq. Son illər dünyada böyük dövlətlər arasında iqtisadiyyat sahəsində ziddiyyətlər dərinləşir, valyuta müharibələri baş verir, bunun nəticəsində qlobal iqtisadiyyat zəifləyir. Tokio bu prosesləri necə dəyərləndirir? Yaponiyanın hazırda dünyada qlobal ticarəti tənzimləyən sistemdə islahat aparılması təkliflərinə münasibəti necədir? Mövcud sistemi necə daha effektiv etmək olar?**

- Yaponiya bir sıra məsələlər, xüsusən iqtisadi sahədə yerli və qlobal iqtisadiyyatın dəyişən strukturu, proteksionizmin artması və ticarət münaqişələri ilə mübarizə aparır. Belə bir şəraitdə Yaponiya 2019-cu ilin iyun ayında Osaka Sammitini keçirdi. Sammit zamanı Yaponiya özünəməxsus bir Yapon yanaşması ilə, ümumi əsasları və razılaşma nöqtələrini müəyyənləşdirmək əzmi ilə prezidentlik olaraq liderliyi öz üzərinə götürdü. Nəticə olaraq, böyük ölkələrin liderləri azad, ədalətli, ayrıseçkiliyə yol verməyən və bərabər səviyyəli oyun sahəsi kimi beynəlxalq azad ticarət sisteminin əsas prinsiplərini dəstəklədiklərini bir daha təsdiq edərək qlobal iqtisadi məsələlərlə mübarizə aparmaq üçün bir olduqlarını nümayiş etdirdi. Xarici İşlər nazirləri 2019-cu ilin noyabr ayında G20 Aiçi-Nagoya Xarici İşlər Nazirləri görüşündə G20 Osaka Sammitinin nəticələrini təsdiqləyib, bu tədbiri gələcəkdə konkret fəaliyyətə aparan tramplin olaraq qəbul etdilər. Yaponiyanın rifahı azad və açıq beynəlxalq iqtisadi sistemin qorunub möhkəmləndirilməsinə əsaslanır və bu da qlobal iqtisadiyyatın sabitliyinə və böyüməsinə gətirib çıxarır. Çoxtərəfli ticarət sisteminin təməl daşı olan Ümumdünya Ticarət Təşkilatının (ÜTT) islahatı Apellyasiya Orqanının iflic olunması da daxil olmaqla, hazırda üzləşdiyi çoxsaylı çətinliklər nəzərə alındıqda, olduqca vacibdir.

**-Son illər Çin mövzusu dünyada aktuallaşıb. Pekinin fəal xarici siyasət yürütməsi, dünyanın müxtəlif yerlərinə, o cümlədən Avropaya, Afrika qitəsinə iqtisadi investisiyaları, qlobal təşəbbüsləri birmənalı qiymətləndirilmir. Xüsusən, “Bir qurşaq-Bir yol” Stratrgiyasına fərqli münasibətlər var. Yaponiyanın mövqeyini bu kontekstdə necə şərh edərdiniz?**

- Qonşu ölkə olan Çinlə münasibətlər Yaponiya üçün çox vacibdir. İki ölkə arasında sıx iqtisadi münasibətlər, eləcə də insanlar və mədəniyyətlər arasında qarşılıqlı mübadilələr, münasibətlər mövcuddur. Bundan başqa, Çin ABŞ-dan sonra dünyanın ikinci ən iri iqtisadiyyatına malik ölkədir və təkcə Yaponiya deyil, bütün dünyanın davamlı iqtisadi inkişafı ilə birbaşa ələqədədir.

Digər tərəfdən, Çinin geniş ərazidə iqtisadi zona qurmaq təşəbbüsü olan “Bir kəmər - Bir yol”-a əsaslanan digər ölkələrdə infrastrukturun inkişaf etdirilməsinə yönəlmiş müvafiq kreditlər vasitəsilə hədəf ölkələrində həyata keçirilən layihələrin maliyyə sağlamlığından başqa, onların açıqlığı, şəffaflığı və iqtisadi səmərəliliyi tələb olunur. Yaponiya olaraq davamlı şəkildə növbəti tendensiyaları diqqətdə saxlayacağıq.

**-Hazırda dünyada millitralist meyllər də artır. Beynəlxlaq təhlükəsizlik sazişləri pozulur. Sürətli silahlanma, yeni silahların yaradılması müşahidə olunur. Hücum silahlarından imtina edən, daha çox sülh platformasından çıxış edən ölkə kimi Yaponiya bu proseslərə necə yanaşır? Tokio bu yeni çağırışlara görə ənənəvi siyasətini dəyişə bilərmi?**

-Yaponiya müharibədən sonra ardıcıl şəkildə sülh ölkəsi olaraq yoluna davam edib. Ölkəmizi əhatə edən təhlükəsizlik mühitində gərginliyin artdığı bir dönəmdə Yaponiya müvafiq müdafiə qabiliyyətinin qurulmasına çalışmaqla, Yaponiya-ABŞ təhlükəsizlik sistemini davam etdirməklə, Yaponiyanı əhatə edən beynəlxalq mühitin sabitliyinin təmin edilməsi üçün diplomatik səyləri və beynəlxalq sülh əməkdaşlığının təşviqini özünün təhlükəsizlik siyasətinin əsası olaraq qəbul edir. Konkret olaraq, BMT Sülhməramlı Qüvvələrinə töhfə, İnkişafa Rəsmi Yardım çərçivəsində yerlərdə səylər, intellektual töhfə və insan resurslarının inkişafına əsaslanan 3 sütunla konkret səyləri təşviq etməkdədir. Bundan başqa, Yaponiya Konstitusiyası ilə bəyan edilən pasifizm fəlsəfəsinə əsaslanaraq, təhlükəsiz dünya qura bilmək üçün Yaponiya beynəlxalq cəmiyyətdə məsuliyyət daşıyan bir üzv olaraq silahsızlaşdırma üçün səy göstərir.

**Laçın SƏMLA**